# ZAKİR MƏMMƏDOVUN TƏDQİQATLARINDA İSLAM VƏ İSLAM ELMLƏRİ

***AYTƏK MƏMMƏDOVA,***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun*
*Etika şöbəsinin aparıcı elmi işçisi,*
*fəlsəfə doktoru, dosent,*
*a.z.m-9@mail.ru*

***AÇAR SÖZLƏR:*** *İslam, Zakir Məmmədov, tədqiqat, elm, din, fəlsəfə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, Закир Мамедов, исследование, наука, религия, философия.*
***KEY WORDS:*** *Islam, Zakir Mammadov, research, science, religion, philosophy.*

Tarixi mənbələrdə orta əsrlərdə ərəblərin Azərbaycana hücumları nəticəsində ərazinin ərəb xilafətinin tərkibinə keçməsi və İslam dininin yayılmağa başlaması barədə faktlar öz əksini tapmışdır. Azərbaycanda İslam dininin yayılması və bunun təsiri ilə İslam elmlərinin formalaşması haqqında məsələlərin mənbələr əsasında öyrənilməsi bütün tarixi dövrlərdə, xüsusilə XX əsrdə böyük əhəmiyyət daşımışdır. Bu mövzu AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov (1936-2003) tərəfindən də araşdırılmışdır.

Şərq dillərini, xüsusilə ərəbcəni mükəmməl bilən Zakir Məmmədov 1962-1963-cü illərdə Misirdə Asuan bəndinin tikintisində işləyən ilk ərəbşünas azərbaycanlı tərcüməçidir. Vətənə qayıtdıqdan sonra fəlsəfə sahəsində araşdırmaya başlayana Z.Məmmədov 1964-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunda çalışmış, 1997-ci ildən həmin institutun Şərq fəlsəfəsi tarixi və dinşünaslıq şöbəsini təsis etmiş və ömrünün axırınadək həmin şöbənin müdiri işləmişdir. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir [1, s.61-65]. Alimin yaradıcılığında dinlər tarixi, orta əsr Şərq fəlsəfəsi, Azərbaycan fəlsəfəsi tarixi məsələləri mühüm yer tutmuşdur.

Dini etiqadla əlaqədar məsələləri araşdıran Zakir Məmmədov Azərbaycanda dünyagörüşü məsələlərinin eramızdan çox-çox əvvəllərə gedib çıxdığını xatırladarkən yazmışdır ki, Azərbaycan mühiti üçün atəşpərəstlik – məcusilik səciyyəvi idi. İşıq və qaranlıq prinsipini əsas götürən dini-fəlsəfi cərəyanlardan Zərdüştilik məcusiliyə aid edilir. Azərbaycan xalqının etnik tərkibində iştirak edən oğuzlar və başqa tayfalar Günəşə, Aya, işığa, suya, bitkilərə, quşlara və heyvanlara pərəstiş etməklə yanaşı, onlarla öz yaranışları, soyları arasında yaxınlıq olduğuna inanırdılar [2, s.11].

İşraqilik fəlsəfi təliminin əsasını qoymuş Şihabəddin Yəhya Sührəvərdinin fəlsəfi irsinin Azərbaycanda yeganə tədqiqatçısı kimi Zakir Məmmədov Zərdüştiliyin işraqiliyə təsiri məsələsindən bəhs etmişdir. Əsası XII əsrdə qoyulmuş işraqilik cərəyanına Zərdüştiliyin dərin təsiri olmuşdur. Şihabəddin Sührəvərdi məcusilərin "küfrünü", daha doğrusu, dualizmi rədd etdiyi halda, Zərdüştün adını hörmətlə çəkmiş, ona əsaslanmışdır. Maraqlıdır ki, "işıq" anlayışı Zərdüştilikdə Məhəmməd Şəhristani tərəfindən və işraqilikdə Şihabəddin Sührəvərdi tərəfindən eyni məzmunda şərh edilmişdir. Məhəmməd Şəhristani Zərdüştiliyi mütləq mənada monoteizmə gətirib çıxarmaqda ifrata varır, işığın xaliq tərəfindən yaradıldığını söyləyir: "Allah işığı yaratdı, onun ardınca kölgə hasil oldu. Çünki varlıqdan zəruri olaraq ziddiyyət doğur". Buradan belə çıxır ki, qaranlığın (şərin və s.) mənbəyi Əhrimən deyildir, bəd şeylərin özü də vahid Allahın qeyri-iradi fəaliyyətinin nəticəsində yaranır [3, s.10].

Zərdüştün vətənindən söhbət gedərkən, orta əsr müəllifləri, o cümlədən Əhməd Bəlazuri (...-892) və Əbu Reyhan Biruni (973-1048) onun "Azərbaycandan çıxdığını" söyləmişlər. Yaqut Həməvi (1179-1229) Zərdüştün Şizdən olduğunu yazırdı: "Şiz Azərbaycanda nahiyədir. Deyilir: məcusilərin

peyğəmbəri Zərdüşt buralıdır. Bu nahiyənin qəsəbəsi Urmiyadır". Alim Urmiya haqqında danışarkən oranı "məcusilərin peyğəmbəri Zərdüştün şəhəri" adlandırmışdır. Qütbəddin Şirazi (1236-1311) Şihabəddin Sührəvərdinin "İşraq fəlsəfəsi" kitabına yazdığı şərhdə onu "görkəmli filosof, kamil imam, Zərdüşt Azərbaycani" deyə yad etmişdir [3, s.10].

Xristian dini də bu ərazidə yayılmağa başlamışdı. Azərbaycanda İslam dini yayıldıqdan sonra Xristianlıq xristian albanların zaman keçdikcə assimilyasiyaya uğraması ilə özgələşmişdir. Zakir Məmmədovun fikrincə, Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda VII əsrədək fəaliyyət göstərmiş ideoloji cərəyanların təlimləri uzun müddət yaşamış, hətta İslam dininin qərarlaşdığı ərazidə bəzən bu və ya digər şəkildə təzahür edərək sonrakı fikir cərəyanlarına təsir göstərmişdir. Xilafətin fəthləri ilə bir vaxtda Azərbaycanda İslam dini də yayılmağa başlamışdı. Yeni din ölkənin cənub hissəsində - Muğanda və Xəzər dənizi sahili vilayətlərində nisbətən tez qəbul edilmişdi. İslam dini Azərbaycanın iri şəhərlərində, xüsusən tacirlər arasında sürətlə yayılır, əvvəlki dini əqidələri aradan qaldırırdı. Xristianlıqdakı missionerliyə oxşar hala zəif, əlahiddə şəkildə bəzən İslamda da təsadüf edilirdi. Məsələn, Əhməd Bəlazuri (820-892) yazırdı ki, hakim əl-Əşas ibn Qeys Azərbaycana dövlət təqaüdü və maaş alan ərəbləri köçürdərək, əhalini müsəlmanlaşdırmağı onlara tapşırdı. Sonralar əl-Əşas buraya gələndə gördü ki, əhalinin çoxu artıq İslamı qəbul etmişdir və Quran oxuyur. O, təqaüd və xəzinədən maaş alan ərəblərin müəyyən hissəsini Ərdəbilə köçürdü, oranı tikdirib abad etdi və orada məscid inşa etdirdi; sonralar həmin məscid genişləndirildi. Lakin belə təşəbbüslər mütəşəkkil olmamışdır [2, s.21].

Zakir Məmmədov İslamın Azərbaycanda yayılması və əski etiqadlara münasibəti məsələlərini də tədqiq etmişdir. Alimin fikrincə, keçmiş etiqadlarla müqayisədə İslamın mütərəqqi cəhətləri, xüsusən azadfikirlilik meyillərinə dözümlülüyü ona qarşı rəğbəti artırırdı. Azərbaycanda müsəlmanlaşma prosesi ayrı-ayrı bölgələrdə müxtəlif müddətlərdə başa çatmışdır. Lakin əvvəlki dini əqidələr birdəfəlik yox olmamış, özünün bir sıra müddəalarını və prinsiplərini xalq adət-ənənələrinə qoşaraq əsrlər boyu yaşatmışdır. Ölkədəki maddi mədəniyyət abidələri – atəşgahlar, alban kilsələri də keçmişlə bağlılığı möhkəmlətmişdir. İslam dini bəzilərinin cizyə vergisindən azad olmaları, bəzilərinin hakim dairələrdə mövqe tutmaları və başqa məqsədlər üzündən, ümumiyyətlə isə könüllərə daha tez yol tapması, həyatiliyi, munisliyi sarıdan qəbul edilirdi. Monist İslam dünyagörüşü Atəşpərəstliklə ziddiyyət təşkil etdiyindən onu daha çox sıxışdırırdı [2, s.21-22].

Xilafətin genişlənib inkişaf etməsi ilə əlaqədar olaraq, hüquqi münasibətlər də formalaşırdı, müsəlman Şərqində bir neçə sünni hüquq məzhəbi yaranmışdı. Zakir Məmmədov sünni hüquq məktəblərindən hənəfilik, malikilik, şafeilik və hənbəlilik kimi məzhəblərdən bəhs edərkən, həmin məzhəblərin ideoloqlarının, İslam fəqihlərinin azərbaycanlı nümayəndələrinin olduğunu da yazmışdır. Alim mənbələr əsasında Azərbaycandakı hədis alimlərinin, əsasən, hənbəli məzhəbinə mənsub olduqlarını və bu alimlərdən bəzilərinin Şərqin mədəniyyət mərkəzlərinə gedib görkəmli mütəfəkkirlərdən təhsil aldıqlarını qeyd etmişdir. Tədqiqatçının fikrincə, ilk mənbələrdə hənəfiliyin azərbaycanlı nümayəndələrindən olan, Bərdə şəhərində doğularaq boya-başa çatan və ömrünün bir hissəsini vətəndən uzaqlarda keçirən Əbusəid Əhməd ibn Hüseyn Bərdəinin (...-929) adı çəkilir. İbn ən-Nədim (...-1047) onu görkəmli alim, fiqhə dair "Xülasə" kitabının müəllifi Əbülhəsən Abdulla ibn Həsən Kərxinin (874-916) müəllimi kimi təqdim edir. Xətib Bağdadi (1002-1071) yazır ki, "o, ziyarətçi kimi Bağdada gəlmiş, sonra orada yaşamışdır. ... Əbusəid (Bərdəi) illərlə Bağdadda qalıb dərs dedi". Əbusəid Bərdəi mənbələrdə Əbu Hənifənin məzhəbinə (hənəfiliyə) mənsub fəqihlərdən və mötəzililərin təlimlərini izləyən mütəkəllimlərdən biri kimi göstərilir [3, s.7-8].

Həmin dövrdə ortodoksal fəqihlər çoxluq təşkil edirdilər. Azərbaycanda Əhməd ibn Harun Bərdici (844-914), Məkki ibn Əhməd Bərdəi (...-965), Cəfər ibn Məhəmməd Marağı (889-967), Əbdüləziz ibn Həsən Bərdəi (...-935), Musa ibn İmran Səlmasi (...-990), Cəfər ibn Məhəmməd Ərdəbili (X əsr) kimi mükəmməl təhsil görmüş görkəmli hədis alimləri vardı.

IX əsrin böyük Azərbaycan mütəfəkkiri, fəqih alimi Əbubəkr Əhməd Harun oğlu Bərdici vaxtilə Kür çayı sahilində, Bərdənin on dörd fərsəxliyində yerləşən Bərdic şəhərində anadan olmuşdur. Əhməd Bərdici irsinin ilk tədqiqatçısı Zakir Məmmədov yazmışdır ki, o, doğma yurdunda dövrünün zəruri biliklərinə yiyələndikdən sonra müxtəlif yerlərə - İraq, Suriya, Misir, Əlcəzair, Hicaz, İran və başqa ölkələrə səyahət etmiş, təhsilini artırmışdır. Əhməd Bərdicinin yaradıcılığı dini-ideologiyaya həsr olunmuşdur. Əbülhəsən Darəqütni (918-995) onu “hədis (Peyğəmbərin sözləri və işləri ilə bağlı rəvayət) dayaqlarından biri” saymış, inanılmış, nüfuz sahibi adlandırmışdır. Xətib Bağdadi (1002-1071) və Əbucəd Səmani (1113-1167) onun haqqında “fəzilətli”, “zəkalı” və “hafiz” sözlərini işlətmişdir. İbn İmad Hənbəli (... -1678) yazır ki, Əhməd Bərdici “axırıncı nüfuz sahiblərindən və dünya alimlərinin məşhurlarından idi”. Başqa mənbələrdə isə o, “təkzibedilməz nüfuz sahibi”, “müsəlman hüququnu dərindən bilən” alim kimi təqdim edilir. O, nüfuzlu müəllim sayılanda hələ iyirmi beş yaşı tamam deyilmiş [4].

Əhməd Bərdicinin “Əshabələr, ardıcıllar və hədis müəlliflərindən nadir adların təbəqələri” traktatı daha məşhurdur. “Nadir adların təbəqələri”ndə 426 nəfər Peyğəmbər əshabəsinin, ardıcıllarının, davamçılarının və hədis alimlərinin adları, onların mənsub olduqları yerlər göstərilir. Əhməd Bərdici traktatın əvvəlində onun yeniliyinə işarə edərək yazır: “Mənim (araşdırdığım) nadir adlardır. Onlar Peyğəmbər əleyhissəlamın əshabələridir. Alimlərdən heç birinin həmin adlardan hansınısa çəkdiyini bilmirik” [4].

VII-X əsrlərdə müsəlman Şərqi ölkələrində ictimai-siyasi və dini-fəlsəfi məsələlərdən bəhs edərkən Zakir Məmmədov qədərilik, cəbərilik, sifatilik, mötəzililik, əşərilik və i.a. cərəyanların nümayəndələrinin də fikirlərini göstərmişdir. Alim yazırdı: “Yaxın və Orta Şərq sxolastikasında mübahisələr ilahi göndəriş və imamət məsələsi ilə yanaşı, əsasən, Allahın atributları və tövhid, qədər və ədalət, öyüd və hədə, eşitmə və əql kimi məsələlər ətrafında gedirdi. Qədəriliyin banisi Məbəd ibn Xalid Cəhni (...-699) hesab olunur. Qədərilər Allahın yalnız vahid zatının qədimliyini təsdiq edir, onun atributlarının, eləcə də Quranın yaranmış olduğunu söyləyirdilər. Onlar göstərirdilər ki, insan öz hərəkətlərində sərbəstdir, istər xeyir, istərsə də şər əməllər onun öz təbiətindən irəli gəlir. Bu məsələdə cəbərilər qədərilərə zidd mövqe tuturdular. Cəhm ibn Səfvan Səmərqəndi (...-745), Hüseyn ibn Məhəmməd Nəccar (...-230) və başqa cəbərilər iddia edirdilər ki, hər şey Allahın iradəsindən asılıdır. Allahın atributlarının inkarında isə qədərilər sifatilik cərəyanı tərəfdarlarının hücumuna məruz qalırdılar. Sifatilər Allaha aid edilən bütün atributları, hətta onun insan surətində təsvirini təsdiq edirdilər” [3, s.22].

Alim VIII əsrin ikinci yarısında bu cərəyanların ideya zəminində meydana çıxan mötəzililik cərəyanının azərbaycanlı nümayəndələri haqqında qeyd etmişdir ki, mötəzililik Vasil ibn Əta (700-749), Əbül Hüzeyl Əllaf (...-849), İbrahim ibn Səyyar Nəzzam (...-835), Hişam ibn Əmr Füvəti, Məhəmməd ibn Vəhhab Cübbai (...-916) və başqa mütəfəkkirlərin başçılığı ilə müxtəlif qollara (firqələrə) ayrılır. IX əsrin birinci yarısında mötəzililik müsəlman ölkələrində, o cümlədən Azərbaycanda geniş yayılmışdı. Xariciliyin nümayəndəsi Əbubəkr Məhəmməd ibn Abdullah həm də mötəzili idi [3, s.22-23]. Əhməd ibn Yəhya Murtəzanın (1363-1437) “Mötəzililərin təbəqələri” kitabında başqa bir Azərbaycan mütəfəkkiri - Əbülhəsən Bərdəi haqqında məlumat verilir: “Əbülhəsən Əhməd ibn Ömər ibn Abdulla Bərdəi nəcib və görkəmli alim idi. O, məşhur mötəzililərdən Əbu Əli Məhəmməd ibn Əbdül Vəhhab Cübbai, Hişam ibn Ömər Füvəti, Əbbad ibn Süleyman və başqalarının dostu idi”. Həmin əsərdə Əbu Əli Məhəmməd Cübbai haqqında bir sıra məlumatlar Əbülhəsən Bərdəinin dilindən nəql olunur. Kitabda fəqih, mütəkəllim Əbu Teyyib Məhəmməd ibn İbrahim Xalidi Bağdadinin kəlam elmini Bərdəidən öyrəndiyi qeyd olunur. Xətib Bağdadi (1002-1071), İbn ən-Nədim, Əsqilani (1372-1449) də Əbülhəsən Əhməd ibn Ömər Bərdəini mötəziliyin görkəmli nümayəndəsi kimi yad etmişlər [3, s.23].

Zakir Məmmədov mötəzililikdə ümumi cəhətlərlə yanaşı, ciddi fikir ayrılıqlarının da mövcud olduğunu yazmışdır: “Ən böyük ixtilaf imamət barədə idi. Mötəzililərdən bəziləri xaricilərlə həmfikir

olub imamın yalnız qüreyşilərdən deyil, bütün müsəlmanlardan seçilə bilməsini mümkün sayır, bəziləri isə onlara zidd gedirdilər. Əsəmm adlı bir mötəzili göstərirdi ki, "insanlar bir-birinə zülm etməkdən əl çəksələr, imama ehtiyac yoxdur". Yunan fəlsəfəsi ilə yaxından tanış olan mötəzililərin yaradıcılığında təbii-elmi fikirlər, o cümlədən ruh haqqında, substansiya haqqında, cisim haqqında, atom haqqında maraqlı mülahizələr irəli sürülmüşdür" [3, s.25].

Mötəzililik Abbasi xəlifələrindən Məmun (813-833), Mötəsim (833-842) və Vasiq (842-887) dövründə geniş intişar tapmışdır. Məmunun verdiyi fərmana görə, mötəzililiyi bütün müsəlmanlar qəbul etməli idilər. Əhməd ibn Hənbəl və onun ardıcılları olan hənbəli fəqihlər mötəzililiyə qarşı çıxdıqları üçün ciddi cəzalandırılmışlar. Lakin mötəzililik təliminin açıq təbliği uzun çəkmədi. Xəlifə Mütəvəkkil (847-861) mötəzililərə qarşı çıxandan sonra onlar tədricən zəifləməyə və siyasi həyatdan uzaqlaşmağa başladılar [3, s.25-26].

Alim dövrün ictimai-siyasi və ideoloji mühiti haqqında yazmışdır ki, xilafətdə gedən təbəqələşmə, hakim dairələrdə varlanmaya, dəbdəbəli həyat sürməyə güclü meyil göstərilməsi müsəlman icmasının aşağı təbəqələrində ciddi narazılığa səbəb olmuşdu. Bu öz ifadəsini ən əvvəl passiv formada zöhddə (asketizmdə) tapdı. Zahidlər (asketlər) zəngin həyat tərzinə nifrət bəsləyərək mənəvi kamilliyi maddi sərvətə qarşı qoydular.

Zakir Məmmədovun yaradıcılığında sufizmin yaranması, sufizmə təsir edən təlimlər, görkəmli sufi mütəfəkkirlər haqqında məsələlər geniş şəkildə işıqlandırılır: "İctimai-siyasi hadisələrin kəskinləşdiyi ideoloji mühitin mürəkkəbləşdiyi belə bir dövrdə - VIII əsrdə yeni bir fikir cərəyanı - sufilik (təsəvvüf, sufizm) meydana çıxmış, bütün müsəlman ölkələrində sürətlə yayılmışdır. İslam zəminində meydana çıxmış sufiliyə şamanlıq, Zərdüştilik, Buddizm, Xristianlıq, neoplatonizm və b. təlimlərin təsir etdiyini göstərmişlər. Bu ideya mənbələrindən sufiliyə başlıca olaraq mistik əhval-ruhiyyə, vəcd və hülulilliyin bir sıra ünsürləri keçmişdir. Sufilikdə hind və Çin fəlsəfəsinin də ünsürlərini axtarırlar. Hind təsiri "fəna"nın qəbulunda, Çin təsiri isə "dao" ("yol") ilə "təriq" ("yol") terminlərinin uyğun məzmun daşımasında görülür. Daosizmdə də, sufizmdə də insan səadətə çatmaq üçün öz nəfsini təmizləyib bütün şəhvətlərdən arınmalıdır [2, s.31].

Zakir Məmmədov IX-X əsrlərdə sufiliyin başlıca müxalifətçi cərəyanlardan sayıldığını yazmışdır: "Onun görkəmli nümayəndəsi Əbu Yezid Tayfur ibn İsa Bistami (...-874) yalnız Allaha məxsus Sübhan adını özünə aid edir, "Sübhanəllah!" ("Allaha şükür!") əvəzinə "Sübhani!" ("Mənə şükür") deyirdi. Mütəfəkkirin "Mən Allaham, məndən başqa ilahi yoxdur!" ("Ənə Allah, la ilahə illa ənə!") kimi müddəaları İslama, eləcə də bütün dinlərə açıqdan-açığa zidd görünürdü" [2, s.31]. Allah ilə insanın eyniliyi fikri Hüseyn ibn Mənsur Həllac (858-921) tərəfindən qəti şəkildə irəli sürülmüşdü. O, "Ənə əl-Həqq" ("Mən Haqqam") hökmünə görə dinsizlikdə təqsirləndirilərək Bağdad zindanına salınmış, mühakimə edildikdən sonra edam olunmuşdur. Orta əsrlərin mötəbər qaynaqlarında, habelə sonrakı təzkirələrdə IX-X əsrlərdə yaşamış çoxlu azərbaycanlı sufi haqqında məlumat verilir. Onlardan Hüseyn Cibril oğlu Mərəndi, Əbubəkr Zəncani, İbrahim Yəhya oğlu Təbrizi, Əbülfərəc Əbdülvahid Vərsani, Səid Qasım oğlu Bərdəi, Əli İbrahim oğlu Urməvi, Əbubəkr Məhəmməd Abdulla oğlu Əbhəri, Əbdülhüseyn Zəncani və başqalarını göstərmək olar. Bu sufi mütəfəkkirlər arasında İbn Yəzdanyar Urməvi daha çox tanınmışdır.

Tədqiqatçı mənbələr əsasında Əbubəkr Hüseyn ibn Əli ibn Yəzdanyar Urməvinin təsəvvüfdə ayrıca təriqətinin olduğunu göstərmişdir. O, bir sıra alimləri inkar edirdi. Əbdürrəhman Cami (1414-1492) İbn Yəzdanyarın sufiləri Allaha daha yaxın hesab etdiyini yazmışdır: "Mələklər səmanın, hədisçilər sünnənin, sufilər isə Allahın gözətçiləridir". Əbülqasim Qüşeyrinin (986-1073) fikrincə, İbn Yəzdanyar demişdir: "Sən Allahla ünsiyyətdə olmağı bərk istəyirsənsə, deməli, insanlarla ünsiyyəti sevirsən... Sən Allah yanındakı mənzili bərk istəyirsənsə, deməli, insanlar yanındakı mənzili sevirsən". İbn Yəzdanyar bununla insanlara Allah kimi baxmış, panteizmə güclü meyil göstərmişdir. O, habelə Allahı yuxuda gördüyünü söyləmişdir [2, s.31-32].

Zakir Məmmədov təsəvvüfün mötədil və ifrat olmaqla iki istiqamətdə inkişaf etdiyini bildirmişdir. Mötədil sufilər İslam monoteizmindən kənara çıxmır, ifrat sufilər isə az-çox dərəcədə panteizmə meyil göstərirdilər. Azərbaycanda mötədil sufizmin görkəmli nümayəndələri vardı. Onlardan Əbuhəfs Ömər Məhəmməd oğlu Sührəvərdi (1063-1337), onun qardaşı oğlu Əbunnəcib Əbdülqahir Abdulla oğlu Sührəvərdi (1097-1168) daha məşhur idilər. Əbunnəcib Sührəvərdi Zəncan yaxınlığındakı Sührəvərd qəsəbəsində anadan olmuş, Bağdada gedib orada Nizamiyyə mədrəsəsində təhsil almışdır. Orta əsr mənbələrində Əbunnəcib Sührəvərdinin gənclik illərində yoxsul həyat sürdüyü söylənilir. Çətin güzəran, əziyyətli günlər keçirən Əbunnəcib Sührəvərdi görkəmli alim, böyük sufi şeyxi kimi şöhrət qazanaraq Nizamiyyə mədrəsəsində dərs demiş, bir müddət oraya başçılıq etmişdir. Əbunnəcib xalq arasında böyük nüfuza malik sufi şeyxi kimi tanındığı üçün hakim dairələr tərəfindən toxunulmazlıq hüququ olmuşdur. Mütəfəkkir təqib olunan şəxslərə belə öz sufi ribatlarında yer verməkdən çəkinmirmiş. Mənbələrdə Əbunnəcib Sührəvərdinin Əbdürrəhim və Əbdüllətif adlı iki oğlundan bəhs edilir. Onlardan biri sufi, digəri isə fəqih olmuşdur. Əbunnəcib Sührəvərdinin sufi təlimi onun əmisinin adını daşıyan qardaşı oğlu Əbuhəfs Ömər Məhəmməd oğlu Sührəvərdi (1145-1234) tərəfindən davam və inkişaf etdirilmişdir. O, böyük süfi mütəfəkkir, hüquqşünas alim olmaqla yanaşı, görkəmli siyasi xadim, nüfuzlu diplomat idi. Qısa müddət ərzində böyük şöhrət qazandığından xəlifə Nasir li-Dinillahın (1180-1225) rəğbətini qazanmış mütəfəkkir Bağdadda baş şeyx rütbəsini tutmuşdur.

Tədqiqatçı qeyd etmişdir ki, tarixi mənbələrdən Nasir li-Dinillahın 45 illik hakimiyyəti zamanı xilafətin möhkəmləndiyi göstərilir. Hinduşah Naxçıvani (XIV əsr) Nasir xəlifənin geniş məlumata malik olduğunu, fıqhi dərindən bildiyini, habelə hədislərə dair "Ariflərin ruhu" ("Ruh əl-arifin") adlı kitab tərtib etdiyini yazır. Həmin dövrdə xilafətin ictimai-siyasi həyatında türklərin (azərbaycanlıların) geniş fəaliyyət göstərmələri faktı diqqəti cəlb edir: "Əbunnəcib Sührəvərdi, Məhəmməd Hibbətulla oğlu Səlmasi və başqalarının Nizamiyyə mədrəsəsində dərs demələri, xilafət divanına nəzarət etmək vəzifəsinin Yunis Müzəffər oğlu Urməviyə tapşırılması və i.a. Görünür, bu, xəlifənin özünün yarı türk olması ilə bağlıdır; onun anası Zümrüd xanım türk qızı idi" [2, s.59-60].

Şihabəddin Əbuhəfs Sührəvərdi mühüm işlərdə xilafət üçün elçilik (səfirlik) etmiş, diplomatik danışıqlar aparmışdır. Bu cəhətdən Əbuhəfs Sührəvərdinin müsəlman Şərqinin mədəni, ictimai-siyasi həyatında özünəməxsus yeri vardır [2, s.60].

Alim sufi mütəfəkkirlərin bədəndə baş verən psixoloji dəyişiklikləri bilavasitə ruhla əlaqələndirdiklərini qeyd etmişdir. Tədqiqatçı yazmışdır ki, sufilərə görə, ruh həm maddi, həm də qeyri-maddidir. Əbuhəfs Sührəvərdi maddi ruhu "heyvani ruh" ("ər-ruh əl-heyvani") adlandıraraq yazır: "Heyvani ruh hiss və hərəkət qüvvəsinin daşıyıcısı, incə cismanidir... O, vuran damarların içərilərində yayılır. Bu ruh bütün heyvanlarda vardır". Sufi mütəfəkkirin heyvani ruh haqqındakı fikri Şərq peripatetiklərinin psixoloji təliminə uyğundur. "İnsani ruh" ("ər-ruh əl-insani") adlanan qeyri-maddi ruh isə sufilərin əqidəsincə, ilahi aləmdən göndərilir. Əbuhəfs Sührəvərdi qeyd etmişdir ki, insandakı ülvi insani ruh heyvani ruha qovuşaraq yeni keyfiyyət qazanır, bunun sayəsində insan nitqə və ilhama malik olur [3, s.148].

Zakir Məmmədov "insani ruh" və "nəfs" terminlərinin daşıdığı mənanın izahını vermişdir: Buradakı "insani ruh" termininin məzmunu Şərq peripatetiklərinin əsərlərindəki "nəfs" (daha doğrusu, "insani nəfs") anlayışına uyğundur. "Ən-nəfs" bir termin kimi peripatetiklərin əsərlərində "mənəvi can" mənasını daşıdığı halda Əbuhəfs Sührəvərdinin və başqa sufilərin əsərlərində əsasən "ehtiras", "nəfsin istəyi" məzmununda başa düşülür. Sufi ədəbiyyatda xeyirxah işlər, yaxşı əməllə insani ruha, pis hərəkətlər, mənfi xasiyyətlər heyvani ruha aid edilir. Sufilərin əxlaq normalarına görə, insan məzəmmətli sifətlərin mənbəyi olan ehtirasın bəd əməllərindən çəkinməli, hallara və məqamlara yiyələnmək üçün özünü hazırlamalıdır. Sufi mütəfəkkirlər peripatetik filosoflardan fərqli olaraq insani ruhun (nəfsin) nəinki əbədiliyinə, habelə onun gözəlliyinə (əzəldən mövcud olmasına) inanırdılar [2, s.111-112].

Zakir Məmmədovun fikrincə, sufi təliminin mötədlil qoluna mənsub mütəfəkkirin nəzərində təsəvvüf şəriətdən başlayır, təriqətdən (mənəvi kamillik yolundan) keçərək həqiqətdə sona yetir. Sufilər insanın mütləq həqiqəti dərk etməsini hiss və əqli idrak qüvvəsi ilə deyil, yalnız mistik hallara və məqamlara yiyələnməklə mümkün sayırdılar. Mistik özünükamilləşdirmə yolunda ilk mərhələ şəriətdirsə, son məqsəd, son mərhələ həqiqətdir. Şəriətdən həqiqətə mənəvi gediş yoluna təriqət, bu yolun üstündəki dayanacaqlara məqamlar deyilir. Məqamlar sufi halları ilə qırılmaz surətdə bağlıdır. Mistik özünükamilləşdirmə yolundakı mərhələlərin nəzərdən keçirilməsi sufilərin psixologiyasını öyrənməkdən əlavə, onların dünyagörüşünü araşdırmaq baxımından da əhəmiyyətlidir. Təsəvvüfdəki şəriət ortodoksal İslamdakı “şəriət” anlayışının eyni deyildir. Mötədil sufilər ona bir sıra mistik ünsürlər, əlavə müddəalar daxil etmişlər. İfrat sufilər isə bəzən şəriətdən söz açsalar da, əslində, bütün dinlərə laqeyd qalmış, əqidə sərbəstliyini hər şeydən üstün tutmuşlar. Onların fikrincə, həqiqətə çatmaq üçün şəriətə riayət etmək heç də zəruri deyildir. Təriqətə gəldikdə, o, sufizmə qədəm qoymuş hər kəsin mütləq baş vuracağı yol hesab edilir. Sufilərin nəzərində bu yolun uzunluğu təsəvvüf yolçusunun (əs-salik) onu necə icra etməsindən çox asılıdır. Təriqət hallar və məqamlar silsiləsinin vəhdətindən təşəkkül tapır. Məqam sufinin öz ciddi-cəhdi sayəsində çatdığı kamillik mərtəbəsidir, hal hər bir məqamı tamamlayan, yolçunu yeni məqamlara hazırlayan və nəhayət, haqqa qovuşduran ətadır, ilahi vergidir (əl-vahibə). Hal ani, keçici, məqam isə nisbətən sabit, dayanıqlı psixoloji vəziyyət kimi səciyyələndirilir. Əbuhəfs Sührəvərdi hal ilə məqam arasında möhkəm hədd, kəskin fərq olmadığını xatırladaraq yazır: “Bəzilərinə hal görünən şey başqasına məqam görünə bilər”. Təsəvvüfdə təriqət hallar və məqamların qarşılıqlı inkişaf xəttini təşkil edir. Hər bir sufi müridin ən ali rütbəyə yüksələnədək özünü kamilləşdirməsi yalnız halların və məqamların birgə müşayiəti ilə həyata keçir. Özünəhesabat, özünənəzarət və daxili müşahidə halları və məqamları bütün təriqət boyu çulğalaşaraq təsəvvüf yolçusunu daim sarır, onu haqqa yaxınlaşdırır [2, s.112-113].

Alim təsəvvüfdəki bir sıra etik-əxlaqi və ictimai-siyasi fikirlərin o dövrdə mövcud əxilik, məlamətilik və qələndərilik cərəyanlarının ideologiyası ilə çulğalaşdığını qeyd etmişdir: “Sufi mütəfəkkirlərdən bəziləri həmin cərəyanlarla maraqlanmış, onların müəyyən ideyalarını təbliğ, bəzi müddəalarını tənqid etmişlər. Orta əsrlərdə əxilər müxtəlif ictimai mövqe tuturdular. Mənbələrin verdiyi məlumatlarda əxi kəndlidir, tacirdir, ətrafına müridlər toplamış sufidir, ilahiyyat alimidir, əmirdir, qazidir və ələlxüsus sənətkardır. Əxi icmalarının üzvləri bəzi sufi təşkilatları kimi nəzir-niyaz hesabına yaşamır, öz halal zəhmətləri ilə dolanırdılar. Əxilər sünni məzhəbinə mənsub sayılsalar da, fikir azadlığına, əqidə sərbəstliyinə pis baxmırdılar. Əbülqasim Qüşeyri əxiliyin ideologiyası - fütüvvə (comərdlik) haqqında söz açarkən yazır ki, onun nümayəndəsi evində yemək yeyən şəxsin övliya, yaxud kafir olmasının fərqinə varmır. Bu ideologiyanın əsasında humanizm, ictimai bərabərlik, sosial ədalət durur” [2, s.61].

Zakir Məmmədov Əbuhəfs Sührəvərdiyə istinadən məlamətilərin daxilən saleh əməllərlə məşğul olub, zahirən özlərini günahkar göstərərək danlağa məruz qoyduqlarını (məlamət-danlaq) yazmışdır: “Məlaməti o kəsdir ki, xeyiri izhar etmir, şəri gizlətmır. Bu o deməkdir ki, məlamətinin damarlarından səmimiyyət təamı keçmişdir. O, özünü sidq ilə doğrultmuşdur”. Həqiqi simalarını gizlətmək məlamatilər üçün əsas prinsip sayılır: “İstəməz ki, birisi onun halı və əməlləri ilə tanış ola”. Şəriət qaydalarını pozmaqda ittiham edilən qələndərilər dini ayinlərə etinasız yanaşır, namaz qılmır, oruc tutmur, rəsmi adətlərə riayət etmirdilər. Sufilərdən fərqli olaraq əxilik, məlamətilik və qələndərilik yalnız praktiki səciyyə daşıyır, nəzəri məsələlərə nüfuz etmir, idraki məqsədə yönəlmirdi [2, s.61-62].

Sufilərin dünyagörüşü məsələsi Zakir Məmmədovun tədqiqatlarında əhəmiyyətli yer tutur. Alim sufilərin dünyagörüşünün ya monoteist, ya da bu və ya digər dərəcədə panteist məzmun daşıdığını, buna görə “monoteizm” və “panteizm” anlayışlarını ifadə edən terminlərə diqqət yetirilməsinin vacibliyini qeyd etmişdir. İslamda, eləcə də müsəlman sxolastlarının əsərlərində “monoteizm” “ət-tauhid” termini ilə ifadə olunur. Mötədil sufilər bu terminin məzmununa bir qədər mistisizm qatsalar

da, onu yenə də monoteizm kimi başa düşmüşlər. İfrat sufilərə gəldikdə, onlar "ət-tauhid" terminini panteizm mənasında anlamağa çalışmışlar.

Tədqiqatçı XI-XII əsrlərdə Azərbaycanda sufizmin ifrat qoluna mənsub mütəfəkkirlərdən Məhəmməd Bakuvinin və Əbülfərəc Zəncaninin adlarını çəkmişdir. Əbu Abdullah Məhəmməd ibn Übeydullah İbn Bakuyə (Bakuvi) Həllacın görkəmli davamçılarından biri, İbn Xəfifin (...-982) müridid ir. O, Şirazda, Nişapurda və başqa şəhərlərdə yaşamışdır. İlk qaynaqların verdiyi məlumata görə, mütəfəkkirin ölümü təxminən 1037-ci ilə təsadüf edir. Məhəmməd Bakuvinin ərəb dilində bu traktatları vardır: "Həllacın həyatının başlanğıcı və sonu" ("Bidayət hal əl-Həllac və nihayətuh"), "Sufilərin hekayətləri" ("Hikayat əs-sufiyyə"), "Ariflərin xəbərləri" ("Əxbər ət-arifin"), "Qafillərin xəbərləri" ("Əxbar əl-ğafilin"). Bəzi mənbələrdə Məhəmməd Bakuvi əşəriliyin nümayəndəsi kimi də göstərilir. Mütəfəkkirin hədislər toplaması faktı, eyni zamanda onun fəqih və sxolast olmasını söyləməyə əsas verir. Məhəmməd Bakuvi ömrünün son dövrlərində (90 yaşdan sonra) Şiraz yaxınlığında bir mağaraya çəkilib orada yaşamışdır. Mütəfəkkirin həmin yerdə məzarı "Bakuhi", yaxud bu sözün təhrifi olaraq "Baba Kuhi" adlanır. XIX əsrdə Rzaquluxan Hidayətin "İnsan" və "Kuhi" təxəllüslü şair Əli Şirazinin bir şeir divanını Bakuviyə mənsub bilməsi həqiqətdən uzaqdır. Şiəliyi qızğın tərənnüm edən həmin divan məzmun və üslubca XVI əsrə uyğundur. İfrat sufi mütəfəkkir Əbülfərəc Zəncani də "əxi" adını daşımış, əxi Əbülfərəc Zəncani kimi tanınmışdır. Mütəfəkkir 1062-1065-ci illər arasında Zəncanda vəfat etmişdir. XII əsrdə Sədəddin Mahmud Əbülqasım oğlu Təbrizi də əxi olmuşdur. Mütəfəkkiri "kamala çatmış arif, təriqət mürşidi, həqiqət və gerçəklik rəhbəri" adlandırmış, onun 10 oktyabr 1181-ci ildə vəfat etdiyini xəbər vermişlər [2, s.60-61].

Tədqiqatçı "panteizm"in orta əsr Şərq mütəfəkkirlərinin əsərlərində adətən "əl-hülul" (təcəssüm) və "əl-ittihad" (birləşmə) terminləri ilə ifadə edildiyini yazmışdır. "Əl-Hülul" ilahi təbiətin insanda təcəssüm etməsini, insani təbiətin ilahiyə çevrilməsini göstərir, əl-ittihad isə insani və ilahi başlanğıcın birgə mövcudluğu deməkdir. Ortodoksal İslam ideoloqları panteist filosofları həm əl-hüluli (əl-hülul tərəfdarı), həm də əl-ittihadi (əl-ittihad tərəfdarı) adı ilə ittiham etmişlər.

Azərbaycanda Eynəlqüzat Miyanəcinin (1099-1131) fəlsəfi irsinin yeganə tədqiqatçısı Zakir Məmmədov sufizmdə panteist sistemi ilk dəfə İbn Ərəbinin (1165-1240) işləyib hazırlaması haqqındakı müddəanı mənbələr əsasında elmi şəkildə təkzib etmişdir. Alimin fikrincə, əslində, sufizmin panteist fəlsəfəsi İbn Ərəbidən hələ yarım əsr əvvəl Eynəlqüzat Miyanəcinin əsərlərində dolğun şəkildə öz ifadəsini tapmışdır. Onun təlimində sufilərin panteist ideyaları və peripatetik filosofların təbii-elmi görüşləri məharətlə birləşdirilir. Eynəlqüzat Miyanəci Allahı mövcudatın özündə, onunla eyniyyətdə başlanğıc saymaqla, bura yalnız insani və ilahi başlanğıcları deyil, maddi və mənəvi olan hər şeyi daxil etmişdir [2, s.63].

Zakir Məmmədov Azərbaycanda orta əsrlərdə İslami elmlər və onun tanınmış nümayəndələrinin irsini mənbələr əsasında hərtərəfli araşdırmışdır. Alimin fikrincə, Azərbaycanda ideologiyanın digər sahələri ilə yanaşı, elmi-fəlsəfi fikir də inkişaf etmişdi. Peripatetik fəlsəfi fənlər - məntiq, metafizika və fizika ərəb ölkələrində, İranda və Orta Asiyada olduğu kimi burada geniş yayılmışdı. Nəzəri elmlərə qarşı mübarizə faktı və fəlsəfi biliklərin ensiklopediyasını hazırlamış "Saflıq qardaşları" cəmiyyətinin Azərbaycanla bağlılığı bunu bir daha göstərir. Orta əsrlərdə ideologıya Azərbaycanda xilafətə tabe olan digər ölkələrdəki kimi ümumislam mədəniyyəti ilə birlikdə inkişaf etmişdir. Hüquqi, dini, dini-fəlsəfi və elmi-fəlsəfi məsələlər bütün İslam aləmi üçün, demək olar ki, eyni olduğundan Azərbaycanın ideoloji həyatı başqa yerlərdəkindən məzmunca o qədər də fərqlənmirdi. Bununla belə, yerli adət-ənənələr, əski düşüncələr, xalqın xarakterindən irəli gələn xüsusiyyətlər ədəbiyyat, incəsənət və ümumiyyətlə, mədəniyyət sahələrində öz təsirini göstərməyə bilməzdi. Xürrəmilikdə işığa vurğunluq, şüubilikdə el-obasının hər hansı cəhətdən üstünlüyü ilə fəxr etmə, azadfikirlilik meyillərinin vüsət qazanması Azərbaycan gerçəkliyi üçün səciyyəvi idi. O dövrdə Azərbaycanda, ümumiyyətlə, müsəlman Şərqində dini və dini-fəlsəfi təlimlər (sxolastika və mistika) ilə yanaşı, elmi

fəlsəfənin olması bəşər fəlsəfəsi tarixi üçün böyük nailiyyət sayılmalıdır. Çünki feodalizm dövründə Qərb ölkələrində - xristian aləmində elmi fəlsəfə mövcud deyildi [2, s.37].

Beləliklə, XX əsrin 60-cı illərindən elmi yaradıcılığa başlayan, orta əsr Şərq, xüsusən Azərbaycan fəlsəfəsi tarixi məsələlərini araşdıran Zakir Məmmədovun əsərləri onilliklər keçsə də, dəyərini saxlamışdır. O, mənbələr əsasında, tarixilik prinsipindən və həqiqi alim mövqeyindən çıxış edərək milli fəlsəfi irsimizi tədqiq etmişdir. Bu baxımdan Zakir Məmmədovun yaradıcılığının ilk illərində qələmə aldığı əsərlər, habelə İslam dini və İslam elmləri haqqında tədqiqatı zaman keçsə də, aktualdır.

## ƏDƏBİYYAT


**1.** Məmmədov Zakir. Azərbaycanın elm və mədəniyyət xadimləri. Biblioqrafik göstərici. Bakı: Elm, 2010.
**2.** Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. 2-ci nəşr. Bakı: Şərq-Qərb, 2006.
**3.** Məmmədov Zakir. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı: Elm, 1978.
**4.** Məmmədov Zakir. “IX əsr Azərbaycan mütəfəkkiri” // “Azərbaycan gəncləri” qəzeti, 17 oktyabr 1991-ci il.
**5.** Məmmədov Zakir. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı: Azərnəşr, 1986.


Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Айтек Мамедова

## ИСЛАМ И ИСЛАМСКИЕ НАУКИ В ИССЛЕДОВАНИЯХ ЗАКИРА МАМЕДОВА

### РЕЗЮМЕ

Изучение вопросов, связанных с распространением религии ислама в Азербайджане и формированием исламских наук под его влиянием, имело большое значение во все исторические периоды, особенно в XX веке. Эту тему изучал и азербайджанский ученый Закир Мамедов (1936-2003). Закир Мамедов, свободно владеющий восточными языками, особенно арабским, был первым азербайджанским переводчиком, работавшим на строительстве Асуанской плотины в Египте в 1962-1963 годах. Вернувшись на родину, он начал изучать философию. Важное место в творчестве ученого занимают история религии, средневековая восточная философия, история азербайджанской философии.

Закир Мамедов изучал распространение ислама в Азербайджане и его отношение к древним верованиям. Помимо мусульманского права, ортодоксальная мусульманская схоластика и богословие также играли важную роль в исследованиях ученого.

Aytek Mammadova

## ISLAM AND ISLAMIC SCIENCES IN THE RESEARCH OF ZAKIR MAMMADOV

### SUMMARY

The study of issues related to the spread of Islam in Azerbaijan and the formation of Islamic sciences under its influence has been of great importance in all historical periods, especially in the XX century. This topic was also investigated by the Azerbaijani scientist Zakir Mammadov (1936-2003). Zakir Mammadov, fluent in Oriental languages, especially in Arabic, was the first Azerbaijani translator who worked in the construction of the Aswan Dam in Egypt in 1962-1963. After returning to his homeland, he began to study philosophy. History of religion, medieval Eastern philosophy, and history of Azerbaijani philosophy occupy an important place in his works.

Zakir Mammadov studied the spread of Islam in Azerbaijan and its attitude to ancient beliefs. Along with Muslim law, orthodox Muslim scholasticism and theology also play an important role in the scholar's research.